




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 oktyabr 2021-ci il №82 (2590) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyublar

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayonunda səfərdə olublar.*

Dövlətimizin başçısı Füzuli-Ağdam avtomobil yolunun, işğal zamanı dağıdılmış Füzuli rayonunun Dövlətyarlı kəndində yeni "ağıllı kənd"in, "Azərişıq" ASC-nin Füzuli şəhərində Rəqəmsal Yarımstansiya İdarəetmə Mərkəzinin, ilk yaşayış binalarının təməllərini qoyub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olublar.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli Mərkəzi Şəhər parkında yaradılacaq şəraitlə tanış olublar, burada ağac əkiblər.

Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyublar.

Görüşdə dövlətimizin başçısı çıxış edib.



### Prezident İlham Əliyevin çıxışı

- Əziz dostlar, əziz füzulililər, sizi səmimiyyətlə salamlayıram, "Füzuliyə xoş gəlmisiniz" deyirəm. Biz azad edilmiş torpaqlarda bu gün Füzulinin işğaldan azad olunmasının birinci ildönümünü qeyd edirik. Düz bir il bundan əvvəl şanlı Azərbaycan Ordusu Füzuli şəhərini və bir neçə kəndi işğalçılardan azad edib, Azərbaycan bayrağı qaldırılıb və beləliklə, uzun fasilədən sonra Azərbaycan dövləti bu ərazilərdə öz suverenliyini təmin edib. Bu, tarixi hadisədir. Həmin an - 17 oktyabr günü Azərbaycan xalqının çoxəsrlik tarixində xüsusi yer tutacaq. Çünki məhz oktyabrın 17-də bizim böyük şəhərimiz Füzuli işğalçılardan azad edildi. İkinci Qarabağ müharibəsində şəhid olmuş bütün şəhidlərimizə Allahdan bir daha rəhmət diləyirəm. Onların fədakarlığı, qəhrəmanlığı sayəsində biz tarixi ədaləti bərpa etdik. Azərbaycan Silahlı Qüvvələri 44 günlük müharibə zamanı əsl vətənpərvərlik və qəhrəmanlıq göstərmişdir. Azərbaycan Ordusu düşmənin canlı qüvvəsini, texnikasını məhv edərək tarixi ədaləti bərpa etdi və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi.

Müharibə zamanı Füzulinin azad olunmasının çox böyük əhəmiyyəti var idi, çünki böyük yaşayış məntəqəsi idi. Cəbrayıldan, Hadrutdan sonra üçüncü böyük yaşayış məntəqəsi işğalçılardan azad edildi. Füzuli uğrunda çox şiddətli döyüşlər gedirdi, bir neçə gün ərzində şəhərin ətrafında çox ciddi əməliyyatlar aparılırdı. Düşmən müqavimət göstərirdi, amma buna baxmayaraq, Azərbaycan Silahlı Qüvvələri öz tarixi missiyasını yerinə yetirdi. Mən Füzulinin azad olunması xəbərini Azərbaycan xalqına çatdıranda artıq Azərbaycan xalqı və hesab edirəm, bütün dünya gördü ki, biz öz şərəfli missiyamızı sona qədər yerinə yetirəcəyik, heç bir qüvvə bizi dayandıra bilməz.

Füzuli şəhərinin azad olunmasının əhəmiyyəti, eyni zamanda, bu şəhərin strateji yerləşməsi ilə bağlıdır. Füzuli nəzarətimizə keçəndən sonra artıq Şuşa istiqamətinə getmək üçün daha geniş imkanlar açıldı. Bir daha demək istəyirəm ki, Ermənistan tərəfi burada çox güclü istehkamlar qurmuşdu, bir neçə xətt istehkamdan ibarət müdafiə xətti qurulmuşdu. Otuz il ərzində düşmən burada möhkəmlənirdi və bu istehkamları yarmaq, keçmək xalqımızın bir daha böyük qəhrəmanlığını, fədakarlığını göstərmişdir. Təbii ki, bunu görən düşmənin gözü qorxdu. Gördülər ki, bizim əsgər-zabitlərimiz doğma torpaqları azad etmək üçün ölümə getməyə hazırdırlar. Bu istehkamları canı-qanı bahasına keçmiş qəhrəman əsgər-zabitlərimiz düşmənə Azərbaycan xalqının böyüklüyünü bir daha göstərdi. Təsadüfi deyil ki, Füzuli azad olunandan sonra Ermənistan ordusunda fərarilik halları daha geniş vüsət aldı. Düşmən gördü ki, bizim qabağımızda dura bilməyəcək, düşmən gördü ki, artıq bizim önümüz açıldı, digər şəhər və rayonlarımızın azad edilməsi məsələsi qaçılmazdır.

Füzuli şəhərinin azad edilməsi bizə əlavə mənəvi güc verdi. Azərbaycan Silahlı Qüvvələri bundan sonra böyük əzmkarlıq göstərərək xilaskarlıq missiyasını uğurla davam etdirdi. Füzuli azad olunandan 3 gün sonra Zəngilan şəhəri azad edildi, ondan beş gün sonra Qubadlı, ondan sonra biz Laçın dəhlizinə çıxdıq və beləliklə, müharibənin taleyi heç kəs üçün sirr deyildi.

Biz öz torpaqlarımızı azad etməli idik. Mən işğal dövründə bu məsələ ilə bağlı Azərbaycan xalqına dəfələrlə müraciət edərək və keçmiş köçkünlərlə görüşlər əsnasında deyirdim ki, nəyin bahasına olursa-olsun, torpaqlarımızı azad etməliyik. Onu da deyirdim ki, əgər lazım olsa, biz güc tətbiq etməklə öz torpaqlarımızı geri qaytaracağıq. Belə də oldu. Həm işğal dövründə, həm müharibə dövründə bütün təzyiqlərə, bütün bəyanatlara baxmayaraq, bizim qabağımızda heç bir qüvvə dayana bilmədi. Biz Ermənistan ordusunu darmadağın etdik, erməni mifologiyasına son qoyduq, bütün dünyaya sübut etdik ki, "yenilməz Ermənistan ordusu" nəyə qadirdir və bütün dünyaya xalqımızın böyüklüyünü nümayiş etdirdik. Bu şanlı Qələbə çoxəsrlik Azərbaycan tarixində əbədi yaşayacaqdır.

Onu da deməliyəm ki, bizim uğurlu əməliyyatlarımız məhz Füzuli rayonundan başlamışdır. Müharibənin ilk günündə - sentyabrın 27-də Füzulinin Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri və Cəbrayılın Böyük Mərcanlı və Nüzgar kəndləri azad edildi. Yəni, biz öz Zəfər missiyamızı məhz Füzuli rayonundan başlamışıq.

Bu gün Füzulidə olarkən hər kəs erməni vəhşiliyinin təzahürlərini görür. Çünki Füzuli ən çox dağıntılara məruz qalmış rayondur. Bir dənə salamat kənd yoxdur, bir dənə salamat bina yoxdur. Füzuli şəhəri tamamilə yerlə-yeksan edilib. Siz yaxşı xatırlayırsınız, Azərbaycan xalqı yaxşı xatırlayır, Füzuli azad olunandan sonra bir bina tapılmadı ki, biz oraya bayrağımızı sancaq. Bayrağımız hərbi hissənin həyətində dirəkdə qaldırılmışdı. Buraya gələn hər bir insan erməni vəhşiliyini, erməni vandallığını görür və bunu artıq heç kim inkar edə bilməz. Təsadüfi deyil ki, ermənilər işğal dövründə buraya heç kimi buraxmırdılar, hətta beynəlxalq təşkilatların nümayəndələrini də buraxmırdılar. Düzdür, işğal dövründə Minsk qrupunun nümayəndələri iki dəfə faktaraşdırıcı missiya ilə bu bölgələrə gəlmişdilər və müvafiq məruzələr hazırlanmışdı. O məruzələrdə göstərilirdi ki, düşmən burada böyük vandallıq törədib. Ancaq bu dərəcədə dağıntıları heç kim təsəvvür edə bilməzdi. Bu, erməni faşizminin eybəcər üzüdür, bütün dünya bunu görür və görməlidir. Artıq minlərlə insan, həm Füzuli sakinləri, eyni zamanda, xarici diplomatlar, siyasətçilər, jurnalistlər azad edilmiş torpaqlara gəlib erməni vəhşiliyini öz gözləri ilə görürlər.

Biz Füzuli şəhərini və Füzuli rayonunun kəndlərini bərpa edəcəyik. Ötən bir il ərzində bu istiqamətdə böyük işlər görülüb. Azad edilmiş bütün torpaqlarda həyat bərpa olunacaq, vətəndaşlar öz doğma ocaqlarına qayıdacaqlar. Bu bir il ərzində biz çox genişmiqyaslı quruculuq işləri ilə, eyni zamanda, şəhər və kəndlərimizin bərpası ilə də məşğul olmuşuq. Bu proses çox mürəkkəbdir. Burada düzgün planlaşdırma aparılmalı, minalardan təmizləmə işləri görülməlidir. Füzuli azad edilmiş rayonlar arasında minaların sayına görə ən çox çirkləndirilmiş rayondur - yüz mindən çox mina basdırılıb. Biz bütün bu işləri paralel şəkildə aparmalıyıq. Eyni zamanda, Füzuli şəhərinin baş planı, kəndlərin inkişaf konsepsiyası hazırlanıbdır. Birinci infrastruktur layihələri də məhz Füzulidə başlamışdır.

**(Ardı 3-cü səhifədə)**

# Müstəqilliyin bərpasının 30-cu ildönümü münasibətilə Azərbaycan xalqına müraciət

Əziz həmvətənlər!

Sizi xalqımızın dövlətçilik ənənələrinin yenidən dirçəldilməsinin - müstəqilliyimizin bərpa edilməsinin 30-cu ildönümü münasibətilə ürəkdən təbrik edirəm.

1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmaq imkanı qazanmış, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə özünün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dünyaya bəyan etmişdir.

Azərbaycan müstəqilliyinin ilk illərində çoxsaylı təhlükələrlə üzləşmiş, ağır sınaqlardan keçmişdir. Daxili çəkişmələr, dövlət idarəçiliyindəki özbaşınalıq və səriştəsizlik, ağır siyasi və iqtisadi böhran ölkəni vətəndaş müharibəsi astanasına gətirmiş, onun gələcək taleyini sual altına qoymuşdu. Məhz bu şəraitdə Azərbaycan torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalmış, yüz minlərlə soydaşımız öz dədə-baba yurdlarından didərgin düşmüşdür. Baş verənlər bir daha göstərmişdir ki, həqiqi müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir.



Azərbaycan tarixinin bu ağır dönəmində ulu öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdı. Yalnız bundan sonra müstəqilliyin yenidən itirilməsi təhlükəsinin qarşısı alındı. Qısa müddətdə ölkəmizin müstəqil daxili və xarici siyasət strategiyasının təməl prinsipləri müəyyən olundu, ictimai-siyasi sabitlik, dövlət intizamı təmin edildi, demokratik islahatların həyata keçirilməsinə və ordu quruculuğu prosesinə başlanıldı. Azərbaycan gələcək taleyi baxımından həlledici rola malik "Əsrin müqaviləsi"ndə iştirakı ilə dünyanın enerji xəritəsində xüsusi mövqe qazandı, qlobal iqtisadi mühitə inteqrasiya proseslərinə qoşularaq gələcək müvəffəqiyyətlərinə yol açan cəsarətli addımlar atdı.

Ölkəmiz bu gün nəhəng regional və qlobal layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan özünün milli maraqları əsasında müstəqil xarici siyasət yürüdür və dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır. Son illər ərzində iqtisadiyyatımızın həcmi üç dəfədən çox artmış, güclü iqtisadi infrastruktur yaradılmış, mədəni irsimizin qorunması, inkişafı və təbliğində, təhsil, səhiyyə və digər sosial sahələrdə ciddi uğurlar əldə edilmiş, insanlarımızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Torpaqlarının iyirmi faizinin 30 ilə yaxın işğal altında qalmasına, bir milyondan artıq qaçqın və məcburi köçkünün olmasına baxmayaraq, Azərbaycan məqsədlərinə doğru daim inamla irəliləmiş, öz hədəflərindən yayınmamışdır.

Uzun illər ərzində Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutulan strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün görülən fasiləsiz işlərin məntiqi nəticəsi isə tarixi ədalətin bərqərar olması - Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi olmuşdur. Rəşadətli Ordumuz döyüş meydanında həqiqi qəhrəmanlıq və vətənpərvərlik nümayiş etdirərək cəmi 44 gündə torpaqlarımızı işğaldan qurtarmışdır. Azərbaycan xalqının apardığı Vətən müharibəsi Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir. Azərbaycanın Vətən müharibəsindəki Zəfəri regionumuzda yeni reallıqlar yaratmışdır. Tarixi Qələbəmiz həm ölkəmizin, həm də bütövlükdə regionun inkişafında yeni dövrün başlanğıcıdır.

Bizə Zəfər bəxş etmiş bütün igid oğullarımıza bir daha minnətdarlığımızı bildirir, Vətənimizin ərazi bütövlüyü naminə canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edirik.

Hörmətli həmvətənlər!

Mənim təşəbbüsümlə irəli sürülmüş qanun layihəsinin qəbul olunması ilə bu ildən etibarən 18 oktyabr ölkəmizdə Müstəqilliyin Bərpası Günü kimi qeyd ediləcəkdir. Bu gün biz 30 illik müstəqillik tariximizdə ilk dəfə olaraq müstəqilliyimizin bərpasının ildönümünü ərazi bütövlüyünü təmin etmiş qalib xalq kimi qarşılayırıq. Yaxın tariximizin bu əlamətdar hadisəsi münasibətilə bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 oktyabr 2021-ci il

# Müstəqilliyin Bərpası Gününə həsr olunan tədbirlər keçirildi





Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Sanatoriyasında "18 Oktyabr - Müstəqilliyin Bərpası Günü"nə həsr olunan tədbirlər keçirildi.

Tədbirdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət Himni səsləndirildi.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində polkovnik Emin Səfərov çıxış edərək, ölkəmizin müstəqillik illərində əldə etdiyi uğurlardan söz açdı. Polkovnik bildirdi ki, 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü hər birimiz üçün qürur və iftixar dolu bir gündür. 30 il əvvəl ölkəmiz müstəqilliyinə qovuşdu. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olundu. Bununla da xalqımız bir əsrdə ikinci dəfə müstəqillik qazandı. Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində müstəqilliyimiz daha da möhkəmləndi. Təəssüflər olsun ki, 1992-1993-cü illərdə erməni işğalçıları ölkəmizin 20 faiz ərazisini işğal etdilər. Uzun illər torpaqlarımız qəsbkarların əlində qaldı. 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində Vətən müharibəsi başlandı. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 gün ərzində 28 illik işğala son qoydu. Qarabağı, həmçinin işğal olunmuş başqa ərazilərimizi erməni qəsbkarlarından azad etdi. Bu parlaq Qələbə xalqımızın qəhrəmanlıq tarixində əbədi qalacaq. Müstəqilliyimiz əbədi, əzəli yaşayacaq.

Çıxışlar başa çatandan sonra kursantlar İlkin Nəsibov, İbrahim Əliyev, Feyruz Məmmədov müstəqilliyimizə həsr olunan şeirlər söylədilər.

Bakı şəhər Mədəniyyət Baş İdarəsinin müğənniləri qəhrəmanlığı, vətənpərvərliyi və müstəqilliyimizi tərənnüm edən mahnılar ifa etdilər.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Sanatoriyasında keçirilən tədbirdə hərbi qulluqçular və veteranlar iştirak etdilər. Tədbirdə tibb xidməti polkovniki Elçin Abdullayev çıxış edərək çağdaş Azərbaycanın keçdiyi 30 illik tarixi yolundan danışdı. O, 1991-ci il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının indiyədək qorunub saxlanmasında xalqımızın xilaskarı Ümummilli Liderin misilsiz xidmətləri olduğunu qeyd etdi. "Müasir Azərbaycan dövlətçiliyinin memarı Heydər Əliyevdir. Ulu Öndər bütün şərəfli ömrünü Azərbaycanın dövlət quruculuğuna, dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə yönəltdi. Nəticədə istəyinə nail oldu. Güclü, qüdrətli, yenilməz bir dövlət qurdu, tarixin səhifələrində heç vaxt pozulmayacaq, zamanlara sinə gərəcək dərin izlər qoydu. Müasir Azərbaycanın dövlətçilik tarixi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır".

Polkovnik Elçin Abdullayev, həmçinin qeyd etdi ki, Ulu Öndərin yolu bu gün onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı Azərbaycan Ordusunun müdafiə qabiliyyətinin daha da artırılmasını prioritet məsələ hesab edərək, bu istiqamətdə mühüm addımlar atdı. Nəticədə ordumuz gündən-günə daha da qüdrətlənərək, dünyanın ən güclü orduları sırasında yer alaraq torpaqlarımızı işğaldan azad etdi.

Tədbir tibb xidməti polkovnik-leytenantı Kamil Cəlilovun 44 günlük Vətən savaşında Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlər zamanı xalq, dövlət, ordu birliyindən bəhs edən çıxışı ilə davam etdi.

Sonda tədbirdə çıxış edənlər ehtiyatda olan tibb xidməti polkovnik-leytenantı Pərviz Məmmədov, mayor Şahin Quliyev, Firəngiz Məmmədova, Sevda Tağıyeva, Şəlalə Əzizova Azərbaycanın Müstəqilliyinin Bərpası Gününün şanlı tarixindən söz açdılar.

Tədbir sənədli filmin nümayişi ilə başa çatdı.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## "Bu gün Azərbaycanın müharibə təcrübəsi digər ölkələr tərəfindən öyrənilməkdədir"

Azərbaycanın müstəqilliyinin bərpasının 30-cu ildönümü münasibətilə ölkəmizin Birləşmiş Ərəb Əmirliklərindəki səfirliyində tədbir keçirilib.

Səfirlikdən AZƏRTAC-a bildirilib ki, Azərbaycanın BƏƏ-dəki səfiri Mahir Əliyev tədbiri açaraq ölkəmizin müstəqillik tarixinə nəzər salıb.

Bildirilib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində hərb tarixinin yeni və şanlı salnaməsini yazmış rəşadətli ordumuzun sayəsində 30 ildən sonra bu bayramı tam fərqli şəkildə - ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edirik.

Səfir müstəqilliyini bərpa etdikdən sonra ölkəmizin üzləşdiyi mürəkkəb proseslərdən danışıb. Ordumuzun müstəqil dövlətimizin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün təminatçısı olduğunu bildirib. Mahir Əliyev qeyd edib ki, Azərbaycan rəhbərliyinin siyasi iradəsi sayəsində ölkəmiz qısa müddətdə böyük uğurlar qazanıb. 44 günlük müharibə dünya dövlətlərində Azərbaycanın iqtisadi qüdrəti, ordusunun gücü haqqında lazımi təsəvvürlər yaradıb. Bu gün Azərbaycanın təcrübəsi digər ölkələr tərəfindən öyrənilməkdədir.

Vurğulanıb ki, Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində Azərbaycan regionda lider ölkəyə çevrilib.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyublar

**(Əvvəli 1-ci səhifədə)**

İşğal dövründə mən Füzuli rayonunun bizdə olan hissəsinə, ərazilərinə dəfələrlə gəlmişdim, 12 dəfə Füzuli rayonunda olmuşdum. Rayonun inkişafı ilə bağlı çox böyük işlər görüldü. Horadiz qəsəbəsinə şəhər statusu verildi və Horadiz Füzuli rayonunun qeyri-rəsmi mərkəzi müəyyən edilmişdir. Böyük sosial infrastruktur layihələri icra edildi - 24 məktəb, 2 xəstəxana, Olimpiya İdman Kompleksi, Gənclər Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi, Muğam Mərkəzi tikildi. İnfrastrukturla bağlı çox böyük işlər görülmüşdür. Fərdi evlərin bərpası işləri görülmüşdür. Yəni, Füzuli rayonunun inkişafı ilə bağlı çox genişmiqyaslı işlər aparılırdı. Qeyd etdiyim kimi, 12 dəfə Füzulidə olmuşam. Burada köçkünlərlə görüşərək hər zaman onlara deyirdim ki, Füzuli şəhəri və rayonun qalan hissəsi azad olunandan sonra biz daha yaxşı evlər tikəcəyik, daha gözəl şərait yaradacağıq və siz qayıdacaqsınız. Bu gün artıq bunu hər kəs görə bilir. Çünki Füzuli rayonunda artıq icra edilən layihələr bizim həm niyyətimizi, həm potensialımızı göstərir. Cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı inşa edilib. Bu gün hazır hava limanı ilə tanış olarkən mən bir daha gördüm ki, bəlkə də dünya praktikasında, dünya tarixində bu qısa müddət ərzində, minalanmış ərazidə beynəlxalq hava limanları tikilməmişdir. Biz Füzulidən Şuşaya elektrik xətləri çəkmişik. Çünki Şuşa azad olunandan sonra mənfur düşmən bütün elektrik xətlərini kəsib, hətta su xəttini də partlatmışdır və Şuşa işıqsız qalmışdır, özü də qış aylarında. Ona görə çətin şəraitdə Füzulidən Şuşaya elektrik xətləri çəkildi. Füzulidə yarımstansiya açıldı və ikinci yarımstansiyanın təməli bu gün qoyulmuşdur.

Yollarla bağlı. İndi siz gələndə yeni yoldan istifadə etdiniz. Görürsünüz, biz bu yolları qısa müddət ərzində çəkdik. Biz hətta Şuşaya qədər Zəfər yolunu çəkdik və indi Füzuli-Şuşa magistral yolunun çəkilişi gedir. Hazırda Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Füzuli-Ağdam yollarında işlər gedir. Bu gün Füzuli-Ağdam istiqamətində yeni yolun təməli qoyuldu. Eyni zamanda, Ağdama gedən qonaqlar, vətəndaşlar Füzuli Beynəlxalq Hava Limanından istifadə edə bilərlər. Yəni, Füzuli Beynəlxalq Hava Limanı Qarabağın hava qapısıdır.

Bütün bu işləri görərək biz bir məqsədi güdürdük ki, keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qaytaraq. Bu gün təməl daşının qoyulması mərasimlərində iştirak edərkən biz artıq bu günü də böyük dərəcədə yaxınlaşdırmışıq. Bu gün Dövlətyarlı kəndinin inkişaf kon-



sepsiyası təsdiq edildi, təməli qoyuldu. "Ağıllı kənd" konsepsiyası əsasında Dövlətyarlı kəndində böyük yaşayış məntəqəsi yaradılacaq. Beş kəndi birləşdirən bu layihə, ümid edirəm ki, gələn ilin sonuna qədər keçmiş köçkünlərin sərəncamına veriləcək. Birinci mərhələdə 450 evin tikintisi nəzərdə tutulur. Ondan sonra əlavə 300 evin tikintisi nəzərdə tutulur və bu, Füzuli rayonunda birinci yaradılacaq yaşayış mərkəzi olacaqdır.

Bu gün Füzuli şəhərinin baş planı təqdim ediləcək. Artıq mənə bu baş plan təqdim edildi. Bu gün bərabər bu plana baxarıq. Bizim mütəxəssislərimiz bu plan üzərində uzun aylar ərzində işləyiblər. Bu gün biz hamımız bu layihə ilə bir daha tanış olarıq. Zəfər muzeyinin, İşğal muzeyinin təməli qoyulacaq.

Füzuliyə həyat qayıdır və qayıdacaq. Əminəm ki, maksimum qısa müddət ərzində Füzuli şəhəri də, rayonun kəndləri də çiçəklənəcək. Biz azad edilmiş ərazilərdə ən müasir texnologiyaları tətbiq edirik. Bu, artıq reallıqdır. Bunu mən müharibə başa çatandan dərhal sonra bəyan etmişdim və bunu bu gün hər kəs görə bilir. Zəngilanda birinci kəndin inşası başa çatmaq üzrədir. Ağdam şəhərinin baş planı təsdiqləndi, işlərə start verildi. Cəbrayılın baş planı təsdiqləndi. Artıq göstəriş verildi və vəsait ayrıldı, digər şəhərlərimizin - Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır. Bütün bu işləri biz görəcəyik. Bildiyiniz kimi, heç kimdən asılı olmayaraq, öz vəsaitimiz hesabına, heç kimə müraciət etmədən, heç bir kredit götürmədən biz bu işləri görəcəyik.

Bu işləri görmək üçün əlbəttə ki, biz uzun illər işləmişik. Uzun illər həm torpaqlarımızı azad etmək üçün ordumuzu gücləndirmişik, həm postmüharibə dövründə quruculuq, bərpa işlərini görmək üçün şərait yaratmışıq, imkanlar yaratmışıq - texniki imkanlar, intellektual potensial, kadr potensialı və maliyyə resursları. Bu gün Azərbaycan iqtisadiyyatı pandemiya böhranından sonra dirçəlir. Artıq mənə verilən məlumata görə, doqquz ayın rəqəmləri müsbətdir, iqtisadiyyat təxminən 5 faiz artıb, sənaye də artıb, qeyri-neft sənayesi isə təxminən 20 faiz artıb. Ancaq hər kəs bilməlidir ki, bütün bu bərpa işləri böyük vəsait tələb edir. Yenə də deyirəm, Azərbaycan heç kimdən heç bir yardım, bir qəpik də yardım almayıb və almayacaq. Bu günə qədər almayıbsa, bundan sonra da almayacaq. Bunu öz imkanlarımız çərçivəsində edəcəyik. Mən tam əminəm ki, bütün planlarımız maksimum qısa müddət ərzində həyatda öz əksini tapacaq, Qarabağ və Şərqi Zəngəzur nəinki Azərbaycanın, dünyanın ən gözəl yerlərindən birinə çevriləcəkdir.

Sabah - oktyabrın 18-i tarixi gündür. Otuz il bundan əvvəl Azərbaycan dövlət müstəqilliyini elan etmişdir. Bildiyiniz kimi, mənim təşəbbüsümlə milli bayramlarımızla bağlı Azərbaycan Milli Məclisi düzəlişlər edib. Mən hesab edirəm ki, bu düzəlişlər tarixi həqiqətə və tarixi ədalətə tam uyğundur. Bizim üçün əsas müstəqillik bayramı 28 May günüdür, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması günüdür. Biz haqlı olaraq fəxr edirik ki, müsəlman aləmində birinci demokratik respublika məhz Azərbaycan xalqı tərəfindən yaradılmışdır. Biz bu gün müstəqil ölkə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin varisiyik. Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. 1991-ci il oktyabrın 18-də isə müstəqillik bərpa edildi. Edilən düzəlişlər məhz bu uyğunsuzluğa son qoydu və bunu hər kəs bilməlidir.

Onu da bildirməliyəm ki, hesab edirəm, o vaxt Azərbaycan rəhbərliyi müstəqilliyi elan edərkən çox əsassız vaxt itkisinə yol verib. Çünki müstəqillik daha əvvəl, daha tez elan oluna bilərdi. Bunu da hər kəs bilməlidir. Biz tarixə ədalətli yanaşmalıyıq. Biz ermənilərdən fərqli olaraq heç bir mifologiya yaratmamalıyıq. Tarixi olduğu kimi bilməliyik və qiymət verməliyik. Çünki 1991-ci ilin oktyabrında bir çox keçmiş müttəfiq respublikalar artıq öz dövlət müstəqilliyini elan etmişdir. Məndə siyahı var, mən həm sizə, həm də Azərbaycan xalqına bu məlumatı vermək istəyirəm, çoxları bəlkə də bilmir.

Birinci keçmiş sovet müttəfiq respublikaları arasında öz müstəqilliyini Litva elan etmişdir - 11 mart 1991-ci ildə. Ondan sonra Gürcüstan - 9 aprel 1991-ci il, Latviya - 4 may, Belarus - 27 iyul, Estoniya - 20 avqust, Ukrayna - 24 avqust, Moldova - 27 avqust, Qırğızıstan - 31 avqust, Özbəkistan - 1 sentyabr, Tacikistan - 9 sentyabr, Ermənistan - 21 sentyabr, Türkmənistan - 27 sentyabr, Azərbaycan - 18 oktyabr. Bu qədər gözləməyin səbəbi nə idi? Bilirsiniz, mən bu suala cavab bilirəm. Bu, ritorik sualdır. Ona görə, 18 oktyabr gününü böyük təmtəraqla qeyd etmək, yaxud da ki, kiməsə buna görə minnətdar olmaq tamamilə yersizdir. Sovet İttifaqı dağılırdı, Rusiya Federasiyası özü dövlət suverenliyi haqqında Konstitusiya Aktını bizdən qabaq qəbul etmişdi. Rusiya çıxdı, Ukrayna çıxdı, bütün qalan respublikaları çıxdı. Azərbaycan rəhbərliyi nəyi gözləyirdi, kimi gözləyirdi? Bilirsiniz, ona görə, bu tarixi bilmədən düzgün təsəvvür formalaşdırmaq çətindir. Gələcəkdə düzgün addımların atılması üçün də bu vacibdir və gənc nəsil də bunu bilməlidir. Tarixi həqiqət belədir. Amma, eyni zamanda, bizim o ildə digər tarixi həqiqət var - o da 17 noyabr tarixidir. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə o vaxt Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirildi, "Sovet Sosialist" sözləri o addan götürüldü, sadəcə, Naxçıvan Muxtar Respublikası adlandırıldı. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda rəsmi bayraq kimi qəbul edildi. Bu tarixi videolar var. Eyni zamanda, Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, oxşar addımı Azərbaycan Ali Soveti də etsin. Ancaq bunu etmədi. Əksinə, 1991-ci ilin yazında Sovet İttifaqı çərçivəsində keçirilmiş referendumda, Sovet İttifaqının saxlanmasına dair referendumda ovaxtkı Azərbaycan rəhbərliyi xalqın iradəsinə zidd olaraq o referendumun nəticələrini saxtalaşdıraraq Sovet İttifaqının saxlanmasına səs verdi.

Ancaq Heydər Əliyev qoymadı ki, Naxçıvanda bu referendum keçirilsin. İndi baxın, müstəqilliyə aparan addımlar hansılardır? Müstəqilliyə aparan yollar haradan keçib? Ona görə 18 oktyabrla bağlı sabah mənim Azərbaycan xalqına təbrikim dərc ediləcək. Ancaq, eyni zamanda, mən istərdim ki, hər kəs bu tarixi bilsin və müstəqilliyin əsas səbəbkarlarını tanısın. Bizim müstəqilliyimizə gedən yol məhz 17 noyabr 1990-cı ildən başlamışdır ki, indi dövlət bayrağımız olan üçrəngli bayraq dövlət bayrağı kimi təsis edildi.

Bu gün bu tarixə toxunarkən, sadəcə olaraq, öz mövqeyimi, öz fikirlərimi sizinlə və Azərbaycan xalqı ilə bölüşmək istəyirəm. Sabah digər tarixi gün qeyd olunacaq - Xudafərin qəsəbəsinin azad olunması. Oktyabrın 18-də Azərbaycan Silahlı Qüvvələri Xudafərin körpüsünə çıxdı və Xudafərin körpüsü üzərində Azərbaycan bayrağını qaldırdı. Xudafərin körpüsü Azərbaycan xalqının milli sərvətidir, Azərbaycan xalqının istedadının sübutudur. Biz Azərbaycan xalqına məxsus olan bu möhtəşəm memarlıq əsəri ilə haqlı olaraq fəxr edirik.

Müharibə artıq tarixdə qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı, biz gələcəyə baxmalıyıq. Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq. Əminəm ki, bütün planlarımız, - bu günə qədər bəyan edilən bütün hədəflər necə təmin edilmişdisə, - növbəti dövr üçün nəzərdə tutulmuş hədəflər də təmin ediləcək. Biz hədəflərə çatacağıq, ölkəmizi gücləndirəcəyik, ordumuzu yenə də gücləndirəcəyik və Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edəcəyik. Əlbəttə ki, 30 il ərzində əziyyət içində, o cümlədən mənəvi əzab içində yaşamış köçkünləri maksimum qısa müddət ərzində öz doğma torpaqlarına qaytaracağıq. Bir daha sizi təbrik edirəm və yeni uğurlar, cansağlığı arzu edirəm. Sağ olun.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycanın Müdafiə naziri NATO-nun Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi ilə görüşüb





*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, oktyabrın 18-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan NATO Baş Katibinin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə köməkçisinin müavini, Qafqaz və Mərkəzi Asiya üzrə nümayəndəsi Xavyer Kolominanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin komandanlığı altında Azərbaycan Ordusunun şanlı qələbəsi ilə başa çatan Vətən müharibəsindən sonra azad edilən ərazilərdə ordumuz tərəfindən görülən işlər və Azərbaycan dövlət sərhədində hazırkı vəziyyətlə bağlı qonaqlara ətraflı məlumat verib.

General-polkovnik Zakir Həsənov NATO ilə əməkdaşlığın cari vəziyyətindən, əməkdaşlıq sahəsində əldə edilən müsbət nəticələrdən məmnunluğunu bildirib, qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Xavyer Kolomina bölgədə sülhün təmin olunması istiqamətində NATO-nun müvafiq dəstəyi göstərməyə hazır olduğunu qeyd edib.

Görüşdə, həmçinin post-müharibə şəraiti və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Müdafiə naziri yeni yaradılan komando hərbi hissəsində olub









*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması istiqamətində fəaliyyətlər davam edir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, oktyabrın 19-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yeni yaradılmış əməliyyat (komando) hərbi hissəsində olub.

Açılış mərasiminə dəvət olunan Vətən müharibəsi qaziləri ilə görüşən Müdafiə naziri onların problemləri və istəkləri ilə maraqlanıb.

Sonra Türkiyədə uzun müddətli "Komando hazırlığı kursu" keçmiş şəxsi heyətə beretlərin təqdim edilməsi mərasimi keçirilib.

Vətən müharibəsində əldə edilən təcrübə nəzərə alınmaqla hazırlanmış hərbi qulluqçulara beretlər təqdim olunub.

Mərasimdə çıxış edən Müdafiə naziri Azərbaycan Ordusunun hərbi qulluqçularının peşəkarlığının daha da yüksəldilməsinə böyük töhfə verən bu kimi kursların davam etdiriləcəyini qeyd edib.

Hərbi hissənin ərazisindəki təlim mərkəzinə baxış keçirən nazir komandoların nümunəvi çıxışlarını izləyib.

Sonda Müdafiə Nazirliyinin rəhbərliyi şəxsi heyətlə birgə nahar edib.

# Şəhid Babək Ramaldanovun anım günü qeyd olunub







Oktyabrın 16-da İkinci Fəxri xiyabanda keçirilən anım tədbirində Bakının Xətai rayonundan olan, Cəbrayıl uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan Vətən müharibəsi şəhidi, polkovnik-leytenant Babək Ramaldanovun xatirəsi ehtiramla yad edilib.

AZƏRTAC xəbər verir ki, Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev, Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, Müdafiə Nazirliyinin idarə və təşkilatlarının əməkdaşları, şəhidin ailə üzvləri, qazilər, Vətən müharibəsi iştirakçıları və digər ictimaiyyət nümayəndələri qəhrəman zabitin məzarını ziyarət ediblər.

Anım mərasimində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından bütün şəhid valideynlərinə başsağlığı verilib.

Anım mərasimində çıxış edən Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev şəhid Babək Ramaldanovun ailəsinə bir daha başsağlığı verərək onlara Allahdan səbir diləyib. O, Azərbaycan Ordusunun qüdrətindən, şəhidlərimizin döyüş zamanı göstərdikləri şücaət və vətənpərvərliklərdən söz açıb, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman oğullarımızın həyatları bahasına azad olunmuş torpaqlarımızda bu gün müqəddəs bayrağımızın dalğalanmasının hər birimiz üçün qürurverici olduğunu bildirib.

R.Quluyev, həmçinin dövlətimizin şəhidlərin xatirəsinə bəslədiyi ehtiram və onların ailələrinə qayğısından bəhs edərək Babək Ramaldanovun valideynlərinə təsəlli verib, Vətən üçün belə gərəkli övlad böyütdüklərinə görə bir daha onlara təşəkkür edib. Qeyd edib ki, torpaqlarımızın azadlığı uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucalan Vətən övladlarımızın xatirəsinin daim əziz tutulduğu kimi, onların ailə üzvləri də hər zaman dövlət qayğısı ilə əhatə olunacaqlar.

YAP Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə anım mərasimində çıxış edərək söyləyib ki, bu gün Azərbaycanın ən müqəddəs məkanlarından birinə toplaşmışıq: "Burada uyuyan şəhidlərimiz Azərbaycan tarixinin ən şanlı səhifəsini yazmış igidlərimizdir. Bu qəhrəmanların timsalında biz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qüdrətinin, gücünün bir nümunəsini gördük. Onlar bizim qəlbimizdəki 30 illik Qarabağ nisgilinə son qoydular. Şəhidlərimiz Azərbaycan oğullarının qəhrəman, igid, yenilməz olduqlarını sübut etdilər. Onlar Azərbaycanın hər bir vətəndaşına örnək olan bir həyat yolu keçdilər. Mən bütün şəhidlərimizin valideynləri qarşısında baş əyirəm. Şəhidlər təkcə valideynlərinin əzizi deyil, hər bir azərbaycanlının, Azərbaycanı sevənlərin əzizi, doğmasıdır. Onlar Azərbaycan tarixində, xalqımızın yaddaşında əbədi yaşayacaqlar. Azərbaycanın qəhrəmanlıq tarixinin Zəfər dolu salnaməsini yazan şəhidlər ölməzdirlər, xalqımız var olduqca onlar da yaşayacaqlar".

V.Rəhimzadə qeyd edib ki, şəhidlərimiz Azərbaycanın ərazi bütövlüyünü bərqərar etdilər, onlar heç zaman unudulmayacaqlar: "Onlar yenilməz sərkərdə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qüdrətini göstərdilər. Təkcə erməni quldurlarına deyil, bizi sevməyən digər anti-Azərbaycan dairələrə qarşı da öz mövqelərini qəti şəkildə ortaya qoydular, böyük şücaət nümayiş etdirdilər. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm. Şəhidlərimizi böyüdən valideynlərə təşəkkür edirəm ki, belə qəhrəman övladlar yetişdiriblər. Gənclərimizin hər biri bu qəhrəmanların şərəfli həyat və döyüş yollarını öyrənməlidir".

Şəhidin dayısı, ehtiyatda olan polkovnik Şair Ramaldanov çıxış edərək respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olan Babək kimi qəhrəmanların gənc nəslə örnək olduğunu vurğulayıb. Babək Ramaldanovun xatirəsinin heç zaman unudulmayacağını bir daha diqqətə çatdıran Ş.Ramaldanov Azərbaycanda canlarını Vətən yolunda qurban verənlərə, Milli qəhrəmanlara, qazi və şəhid ailələrinə sonsuz ehtiram nümayiş etdirildiyini vurğulayıb.

Tədbirdə Xalq artisti Əli Nur, həmçinin məktəblilər Vətən haqqında şeirlər səsləndiriblər.

Şəhid Babək Ramaldanovun ruhuna dualar oxunub, məzarı üzərinə əklillər, tər gül-çiçək dəstələri düzülüb.

Sonra tədbir iştirakçıları şəhid jurnalist, Milli Qəhrəman Kazımağa Kərimovun və şəhid polkovnik-leytenant Babək Ramaldanovun xatirəsinə Xətai rayonunun Kazımağa Kərimov küçəsində ucaldılan abidə kompleksinin qarşısında keçirilən anım mərasimində iştirak ediblər.

Anım mərasimində əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Əməkdar İncəsənət xadimi polkovnik Abdulla Qurbani şəhidlər Babək Ramaldanovun və Kazımağa Kərimovun döyüş yolu haqqında danışıb. Qeyd edib ki, şəhidlərimizin xatirəsi qəlbimizdə əbədi yaşayacaq: "Şəhidlərimizin qanı yerdə qalmayıb, onların qisası, intiqamı Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə döyüş meydanlarında alınıb."

Mərasimdə çıxış edənlər şəhidlərin xalqımızın qəlbində əbədi yaşayacağını vurğulayıblar.

Anım mərasimində şəhidlərin ailə üzvləri çıxış edərək göstərdikləri diqqət və qayğıya görə dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Sonra şəhidlərin abidə kompleksinin qarşısına əklil qoyulub, tər gül-çiçək dəstələri düzülüb.

# HHM bölmələrinin döyüş atışları keçirilir



*Müdafiə nazirinin təsdiq etdiyi 2021-ci il üçün döyüş hazırlığı planına əsasən, ümumqoşun poliqonunda Hava Hücumundan Müdafiə (HHM) bölmələrinin döyüş atışları keçirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, döyüş atışlarının əsas məqsədi şəxsi heyətin zenit-raket komplekslərini (ZRK) idarəetmə bacarıqlarının təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsidir.

Atış çalışmalarında döyüş heyətləri "OSA" ZRK-nın start mövqeyinə çıxarılması və döyüş tətbiqinə hazırlanması üzrə normativləri yerinə yetirirlər.

Komplekslərin döyüş heyətləri şərti düşmən hədəflərinin aşkar olunaraq praktiki atışlarla məhv edilməsi tapşırıqlarını peşəkarlıqla icra edirlər.

# Laçında komanda-qərargah təlimi başlayıb

Quru Qoşunlarının 2021-ci ilin hazırlıq planına uyğun olaraq oktyabrın 19-dan Laçında komanda-qərargah təlimi başlayıb.

Təlim kommunikasiya vasitələrinin geniş tətbiqi ilə ərazi, xəritə və ərazinin maketi üzərində icra olunur.

Komanda-qərargah təlimində müasir idarəetmə üsullarının icra edilməsilə Quru Qoşunlarının digər qoşun növləri ilə qarşılıqlı əlaqədə fəaliyyəti yoxlanılır.

# Türkiyədə kursda iştirak edən Azərbaycan hərbçilərinin buraxılış mərasimi keçirilib



Oktyabrın 16-da Türkiyənin İsparta şəhərində yerləşən Dağ Komando Məktəbi və Təlim Mərkəzi Komandanlığında "Dağ komando kursu"nu bitirən Azərbaycan Ordusunun hərbi qulluqçularının buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, buraxılış mərasimində Azərbaycandan nümayəndə heyəti və ölkəmizin Ankaradakı səfirliyinin nümayəndələri iştirak ediblər.

Mərasimdə çıxış edənlər kursu bitirən hərbçiləri təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Sonda məzunlara kursu müvəffəqiyyətlə bitirmələri barədə sertifikatlar təqdim olunub.

*Tarixi həqiqətlər*

# Zəngəzur mahalının döyüşən qalası - Nüvədi

***Rubrikamızın qonağı Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Dövlət idarəetməsi və menecment kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor Xatirə Hüseynovadır. Xatirə xanımı rubrikamıza qonaq etməyimiz həm onun hələ də mənfur düşmənin tapdağı altında inləyən, Azərbaycanın ən qədim dilbər guşəsi Zəngəzur mahalının Nüvədi kəndində doğulub boya-başa çatması, həm də böyük ziyalı - alim, sabiq millət vəkili, o dövrdə kəndin kolxoz sədri, üç dağın qoynunda yerləşən Nüvədini 3 il qoruyan müsəlləh əsgər Mail Amanovun qızı olaraq dövlətə və dövlətçiliyə sadiq ailədə böyüməsi ilə bağlıdı.***



Professor Xatirə Hüseynova söhbətində Azərbaycanın tarixi həqiqətlərini elmi müstəvidə əks etdirən məqamlardan geniş bəhs etdi. O, öncə Azərbaycan tarixinə şanlı səhifələr yazan şəhidlərimizə, erməni terroru nəticəsində həlak olan soydaşlarımıza Allahdan rəhmət, respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda sağlamlıqlarını itirən qazilərimizə şəfa dilədi.

Qərbi Zəngəzur mahalının döyüşən qalası sayılan, qədim tarixə malik Nüvədi kəndində böyüyən Xatirə xanım rubrikanın aktuallığını nəzərə alaraq söhbətinə iyulun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakının Binəqədi rayonunun Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlilləri ilə görüşündəki geniş çıxışından sitat gətirərək başladı. 2021-ci il iyulun 7-də imzalanan Fərman əsasında yaradılan Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonası Azərbaycanın tarixi baxımından çox mühüm strateji əhəmiyyət daşıyır. O, Prezidentin "Şərqi Zəngəzur bizim tarixi torpağımızdır, Qərbi Zəngəzur bizim tarixi torpağımızdır" sözlərində olan tarixi həqiqətin unudulmadığını, əksinə, indi, post-münaqişə dövründə, tarixi sənədlərin, xəritələrin daha böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırdı.

Xatirə xanım Prezident İlham Əliyevin sözlərinə istinadən qeyd etdi ki, həm regional, həm də qlobal müstəvidə Zəngəzur dəhlizinin və dəhliz üzərində yerləşən qədim Azərbaycan torpaqlarının aktuallığının önə çəkilməsi bilavasitə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərimizə bağlıdır.

Professor daha sonra regionda yeni reallıqların yarandığını, münaqişənin ümumilikdə həll olunduğunu və bundan sonra Azərbaycan ilə Ermənistan arasında suverenlik, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin toxunulmazlığı və ona hörmət əsasında əlaqələrin normallaşdırılması və qurulması işlərinin dayandığını bildirdi. O qeyd etdi ki, 10 noyabr tarixli dövlət başçılarının üçtərəfli bəyanatının 9-cu bəndi ("Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşlarının, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir.") tam şəkildə Azərbaycana əsas verir ki, regionda yeni reallığa uyğun addımlar atsın.

Kafedra müdiri onu da bildirdi ki, tərəflərin 2021-ci il 11 yanvar birgə bəyanatı ilə yaradılmış İşçi qrupu və 2020-ci il 10 noyabr bəyanatının "9-cu bəndinin reallaşdırılmasından irəli gələn işlərin əsas istiqamətlərinin siyahısını formalaşdıracaq, prioritet qismində dəmir yolu və avtomobil yollarının müəyyən edilməsi" işlərinə artıq start verilib. Bu amilləri sadalayan professor Şərqi Zəngəzur ilə Qərbi Zəngəzurun Mincivan-Culfa dəmir yolu xəttinin yenidən bərpa edilməsinin və fəaliyyətə başlamasının tarixdə mühüm hadisə kimi özünəməxsus yer tutacağını qeyd etdi. 46 kilometr uzunluğunda olan bu dəhlizin 13 kilometrliyində Nüvədi kəndi - "mənim böyüdüyüm doğma Nüvədi yerləşir..." deyən və qəlbi daima yurd həsrətilə döyünən Xatirə xanımla söhbətimizi davam etdiririk. Beləliklə...

**- Xatirə xanım, qədim Zəngəzur mahalının döyüşən qalası və ən böyük kəndlərindən sayılan Nüvədinin işğala qədərki dövrü barədə nə deyə bilərsiniz?**

- Qədim yaşayış məskənlərindən biri olan kəndimizin işğala qədər ərazisi 270 kv.km-i əhatə etməklə, 18 min hektar torpağa malik, müasir şəhər tipli inzibati ərazi idi. Nüvədi kəndi Araz çayının sol sahilində, Zəngəzur dağlarının cənub-şərq ətəklərində üç dağın qovşağında yerləşərək, Şərqdən Zəngilan rayonu, Cənubdan İran İslam Respublikası, Şimaldan Qafan, Qərbdən Mehri rayonunun kəndləri ilə sərhəd idi. Nüvədi kəndində hamısı azərbaycanlı olan 1500-dən artıq əhali yaşayırdı. Bu kənd həm də Azərbaycanda ziyalıları ilə tanınırdı. Nüvədi kəndi 1929-cu ilə qədər inzibati cəhətdən Cəbrayıl qəzasına tabe olub. 18 fevral 1929-cu ildə Zaqfederasiyanın qərarı ilə qədim Nüvədi kəndi də daxil olmaqla bir neçə kənd Azərbaycandan alınıb Ermənistana verilib və bununla da Mehri rayonu yaradılıb.

1941-ci ildən Nüvədidən dəmir yolu keçib, 1949-cu ildə isə kəndə elektrik xətti çəkilib. Nüvədi kəndi təbiətinin gözəlliyi, təbii sərvətləri, şəfalı bulaqları, tarixi abidələri ilə insanları həmişə valeh edirdi. Ərazisinin böyüklüyünə görə Ermənistan kəndləri arasında birinci yerdə idi. Kəndimizin narı, üzümü,ənciri, şaftalısı və əriyi çox məşhur idi. 18 min hektar ərazisindən 14 min hektarı əkinə yararlı olub.

**- Kəndinizin qədim tarixi ilə bağlı mənbələrdə hansı məlumatlar, faktlar var?**

- Nüvədi IV əsrdən mövcud olan qədim tarixə və mədəniyyətə malik bir yaşayış məskənidir. Burada tarixi Baba Hacı məbədinin həyətində Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin gerbləri təsvir edilmiş qoç heykəlləri olub. Nüvədi - Babəkin Mötəsimin ordusuna qarşı vuruşduğu və dəfn olunduğu yerdir. Onun dəfn olunduğu yer çox güman ki, "Baba Hacı" məqbərəsindədir. Ümumilikdə, Mehri rayonu ərazisində 5 böyük qədim Azərbaycan abidəsi var: Sultan Səlim Karvansarası, Baba Hacı, Əbdül Ata, Buğakar və Şah Abbas Karvansarası. Sultan Səlim Karvansarasının yaxınlığında Azərbaycanın böyük sərkərdəsi Şah İsmayıl Xətainin adı ilə bağlı 3 yer var: Xətai Yoxuşu, Xətai Yurdu, Xətai Güneyi. Bütün bunlar bu torpaqların qədim Azərbaycan torpaqları olduğunu bir daha təsdiq edir. Nüvədi kəndinin tarixinə aid bir neçə yazılı daş var idi. Həmin daşlar Nüvədi - Qarqadaşı abidələrinin Orxon-Yenisey yazılarından xeyli qədim olduğunu bildirirdi. Yazının mətni sübut edirdi ki, azı 1000-1500 illik tarixə malik Nüvədi kəndi burada xarabalığa çevrilmiş bir çox qədim kəndlərin yerində yaranmışdı. Nüvədidə fransızlar qədim zamanlardan dəmir filizi çıxarmışlar. Dəmir filizini əridən sobalar son vaxtlara qədər qalırdı. Bir tarixi faktı da qeyd edim ki, fransız mənşəli isveçrəli səyyah, arxeoloq, etnoqraf, təbiətşünas və rəssam Fredrik Dyubua de Monpere (1798-1850) Rusiya çarının tapşırığı əsasında 1831-1834-cü illərdə Cənubi Qafqaza səyahət edərək gördüyü mənzərələri çəkib. Mənzərələrdən biri Nüvədi ilə bağlı olub və belə adlandırıb: "Alagöz vadisində Nuqadi kəndi, İrəvan xanlığı".

**- Xatirə xanım, yaxşı yadımdadır, ötən əsrin 80-ci illərinin sonlarında havadarlarının dəstəyi ilə Ermənistanda yaşayan soydaşlarımız zorla tarixi torpaqlarından, dədə-baba yurdlarından köçürüləndə sizin Nüvədi kəndinin camaatı da evini tərk etmək istəmir, sona qədər erməni daşnakları ilə döyüşürdü. O ağır illəri necə xatırlayırsınız?**

- O ağır illər yaddaşımızda silinməz izlər buraxıb. Atam kənd təsərrüfatı elmləri doktoru Mail Amanov həmin illərdə Nüvədidə "Qırmızı sərhəd" kolxozunun sədri olub. O, 1988-1991-ci illərdə Nüvədinin erməni işğalına qarşı mübarizəsində kənddə olan həmkarlarının səfərbərliyi hesabına mərdliklə vuruşaraq, bir sərkərdə nümunəsi göstərib. Arkadi Volskinin və baş katib Mixail Qorbaçovun Azərbaycan xalqına qarşı yeritdikləri qərəzli düşmənçilik siyasətinin canlı şahidi olub. Atam 1989-cu il oktyabrın 10-da Mehri rayonunda 5 nəfər kolxoz üzvü ilə birlikdə erməni quldurları tərəfindən girov götürüldüyü vaxt, ailəmiz çox dərin sarsıntı keçirtdi. Bu kimi bir neçə hadisədən sonra atam Mehri rayonu ilə bütün əlaqələrini kəsərək kolxozu Zəngilan rayonunun tabeçiliyinə keçirtdi. O, uzun illər Nüvədi kolxozuna rəhbərlik etdi. Təhvil-təslim haqda sənəd-sübutlar hələ indiyə qədər də saxlanılmaqdadır. Atam o ağır illərdə Ermənistan ərazisində qalan yeganə azərbaycanlı kəndin bir sakini kimi 1991-ci il avqustun 8-dək düşmənin hər cür hücumlarına, təzyiqlərinə mərdliklə sinə gərən nüvədililərlə birlikdə doğma yurdunun müdafiəsində çiyin-çiyinə iştirak etmişdi. Bəli, nüvədililər dörd ilə yaxın erməni quldurlarına qarşı mərdliklə döyüşdü. Doğma torpağı uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalanlar da oldu. Nüvədinin vətənsevər oğulları düşmənin 18 dəfə ağır hücumunun qarşısını aldı, 60-a qədər düşmənin canlı qüvvəsini məhv etdi. Bütün bunlar yaxın tariximizin şahidi olduğumuz gerçəklikləridir...

**- Xatırladığınız başqa məqamlar da varmı?**

- Atam ümummilli lider Heydər Əliyev irsinin, onun ideyalarının mükəmməl bilicisi idi. Vaxtaşırı mətbuat orqanlarında verdiyi müsahibələrdə, yazılarında bunu göstərmişdi. Onun çox böyük inamla yazdığı 8 avqust 1997-ci il tarixli "Azərbaycan" qəzetində "Ermənistanda son qalamız Nüvədinin işğalından 6 il keçir" rubrikalı irihəcmli yazısında seçdiyi sərlövhədəki kimi: "Biz yurdumuza qayıdacağıq...". Ömrünün sonuna qədər doğma yurduna - Nüvədiyə qayıdacağı günü əminliklə gözləyirdi. O deyirdi: "Ümid edir və inanıram ki, xalqımızın haqq işi uğrunda apardığı mübarizədə xalq qəddini düzəldib qalib gələcək. Bütün torpaqlarımız, o cümlədən də Cavanşirin, Babəkin yurdu olan Zəngəzur da, Nüvədi də azad olunacaqdır. Biz hamımız ata-baba yurduna qayıdacağıq". Bu gün atamın ruhu şaddır. Doğma Vətənində məcburi köçkünlük həyatı yaşayan soydaşlarımız artıq düşmən işğalından azad olunan doğma torpaqlarına qovuşurlar. Əminəm ki, doğma torpaqlarını həsrətlə gözləyən nüvədililər də Zəngəzur mahalının qədim yurd yeri olan Nüvədiyə - elinə, obasına dönə biləcəklər.

**- Artıq Cənubi Qafqaz regionu Azərbaycanın yaratdığı yeni tarixi reallıqların astanasındadır. Dövlət başçısının "France-24" televiziya kanalına müsahibəsində səsləndirdiyi fikirlər özündə xüsusi diqqəti ehtiva edir. Azərbaycan Prezidenti tarixi həqiqətləri bir daha açıb göstərərək "Bu bir tarixi faktdır ki, 1920-ci ildə sovet hakimiyyəti Azərbaycanın ayrılmaz hissəsi olan Zəngəzuru qopararaq onun Ermənistana birləşdirilməsi ilə bağlı qərar qəbul edib və bu qərar icra olunub. Bu hadisə 1920-ci ildə baş verib. 101 il bundan əvvəl. Tarixi torpaqlarımız haqqında danışarkən mən ərazi iddialarından bəhs etmirdim..." - deyə erməni lobbisinin yalan təbliğatını elə Fransa ictimaiyyətinin qarşısında ifşa etdi...**

- Bəli, bu fikirlər həm bir vətəndaş, həm də ölkənin ali təhsil ocağında çalışan bir ziyalı kimi məni də qürurlandırdı. Xüsusilə də, həmin müsahibədə cənab Prezidentin hər bir ölkə kimi, bizim də tariximizi öyrənmək, qədim məskənlərimizi bilmək, hansı ərazilərdə yaşadığımızdan xəbərdar olmaq və oralara qayıtmaq barədə legitim hüquqlarımızdan "France-24" televiziya kanalında bəhs etməsi xüsusi əhəmiyyət kəsb edir.

**- Xatirə xanım, söhbətimizin sonunda rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinə arzu və istəkləriniz...**

- Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusunun apardığı uğurlu əks-hücum əməliyyatları - 44 günlük Vətən müharibəsi xalqımızın tarixi Qələbəsi ilə başa çatdı. Bu müqəddəs Zəfəri bizə yaşadan Azərbaycanımızın qəhrəman oğullarına "Eşq olsun!" deyirəm. Yaşasın qətiyyəti, cəsarəti, inamı ilə dünya azərbaycanlılarının qürur duyduğu Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev!

- Maraqlı müsahibəyə görə çox sağ olun.

**Söhbəti apardı:**
**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

*Cəmşid Naxçıvanski adına Hərbi Lisey - 50*

# Yarım əsrlik hərbi təhsil ocağı peşəkar hərbi kadrların hazırlanması işini müvəffəqiyyətlə yerinə yetirir

Bu gün dövlətimizin diqqət mərkəzində saxladığı prioritet sahələrdən biri də təhsilin inkişafıdır. Bu istiqamətdə son illərdə aparılan məqsədyönlü islahatlar müasir düşüncə tərzinə malik, bilikli, dövlətçiliyimizə sadiq vətənpərvər gəncliyin yetişməsinə əsaslı zəmin yaradıb. Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da yetişməkdə olan nəslin milli vətənpərvərlik ruhunda tərbiyəsi əsas vəzifələrdən hesab edilir. Bu məqsədlə təhsil müəssisələrinin bütün pillələrində yetişməkdə olan gənclərə vətənpərvərlik ruhu aşılanır, onlarda Vətənə, dövlətə məhəbbət hissi tərbiyə olunur. Əgər bir ölkənin gəncliyi vətənpərvərlik ruhunda tərbiyə edilirsə, təbii ki, orada hərbi təhsilin inkişafı da mükəmməl olacaq. Gənclərin vətənpərvər ruhda böyüməsində hərbi təhsilin xüsusi rolu var. Sevindirici hal ondan ibarətdir ki, bu məqsədlə Azərbaycanda bir neçə hərbi təhsil müəssisələri fəaliyyət göstərir və həmin təhsil müəssisələrində gələcək üçün savadlı, bacarıqlı hərbi kadrlar hazırlanır. Müstəqil dövlətin bel sütunlarından biri olan güclü və müasir tələblərə cavab verə biləcək ordusunun yaradılmasında hərbi təhsil sisteminin müstəsna əhəmiyyəti vardır. Respublikamızda milli peşəkar kadrların hazırlanması sahəsində müstəsna xidmətlər göstərən, cəmiyyətdə hərbi peşənin nüfuzunun yüksəlməsində və taleyini orduya həsr edən gənclərin sayının davamlı artmasında əhəmiyyətli rol oynayan təhsil ocaqlarından biri də yarım əsrlik tarixə malik olan Cəmşid Naxçıvanski adına Hərbi Liseydir.



Yubiley ərəfəsində liseyin fəaliyyəti və kursantların gündəlik məşğuliyyəti haqqında yazı hazırlamaq üçün redaksiyanın foto müxbiri ilə hərbi təhsil ocağına üz tutduq. Lisey rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik Müslüm Nəsirovun yanına yollandıq. Nəzarət-buraxılış məntəqəsindən qərargaha gələnə qədər ətrafa göz gəzdirdim. Yenidənqurma və əsaslı təmir işlərindən sonra bir çox dəyişiklik olduğunu müşahidə etdim. Qeyd edim ki, liseyin ərazisində qərargah binaları, kursant yataqxanası və digər məişət binaları inşa edilib, eləcə də mövcud binalar əsaslı təmir olunub. Ərazidə geniş yaşıllaşdırma işləri aparılıb. Binanın qarşısında Cəmşid Naxçıvanskinin büstü və ətrafında xatirə kompleksi ucaldılıb.

Polkovnik Müslüm Nəsirova gəlişimizin məqsədini bildirərək elə ilk məlumatı da ondan aldım. O, liseyin tarixindən, fəaliyyətindən və ordu quruculuğuna verdiyi töhfələrdən geniş söhbət açdı. Hələ sovet dövründə gələcəkdə müstəqil Azərbaycanın milli zabit kadrlarının yetişdirilməsi zərurətini uzaqgörənliklə diqqətə alan ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Hərbi liseyin əsasının qoyulduğunu vurğuladı. "Hərbi lisey ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1971-ci ildə Bakı şəhərindəki 2 saylı 8 illik internat məktəbinin bazasında yaradılıb və 24 noyabr 1997-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə məktəbin adı dəyişdirilərək Cəmşid Naxçıvanski adına Hərbi Lisey adlandırılıb. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Azərbaycan Ordusunun peşəkar hərbi kadrlara olan tələbatını mükəmməl ödəmək, Naxçıvan Muxtar Respublikasında gənclərin hərbi təhsil alması üçün əlverişli şərait yaratmaq məqsədilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı açılıb. Prezident İlham Əliyevin 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı ləğv edilərək onun əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılıb. 2003-cü il aprelin 19-da dahi rəhbər Heydər Əliyev yaratdığı liseyi ziyarət edərək şəxsi heyətlə görüşüb, onlara şərəfli və məsuliyyətli xidmətlərində uğurlar arzulayıb. Bu ziyarət Ümummilli Liderin təhsil ocağına son ziyarəti olub. Elə bu səbəbdən həmin tarix hər il məktəbdə "Cəmşid Naxçıvanski adına Hərbi Lisey günü" kimi qeyd edilir".



Polkovnik, həmçinin bildirdi ki, hər iki liseyin məzunları ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüşlərdə qəhrəmanlıq nümunələri göstərərək "Vətən Müharibəsi Qəhrəmanı" və "Azərbaycanın Milli Qəhrəmanı" kimi yüksək adlara layiq görülüb, müxtəlif orden və medallarla təltif olunublar.

Həmsöhbətimin verdiyi məlumatları qeydə aldıqdan sonra liseyin tədris prosesinin təşkili haqqında məlumat almaq üçün tədris şöbə rəisi polkovnik Saday Balayevlə görüşdüm. Ondan təhsil ocağının tədris proqramı, qəbul qaydaları haqqında ətraflı məlumat aldım. Zabit ilk olaraq bildirdi ki, tədris prosesi "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nun və Müdafiə nazirinin təsdiq etdiyi "Xüsusi təyinatlı tam orta təhsil müəssisələrinin təhsil fəaliyyətinin təşkili haqqında Təlimat"ın tələblərinə uyğun olaraq təşkil olunur. "Liseyə cari ilin sentyabrın 15-dək 15 yaşı tamam olan, 17 yaşı tamam olmayan, qəbul ilində ümumtəhsil pilləsinin ümumi orta təhsil səviyyəsini bitirən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları sənəd qəbulunda iştirak edə bilərlər. Tələb olunan sənədləri toplayaraq liseyin rəhbərliyinə müraciət edən namizədlərin qəbulu iki mərhələdə aparılır. Birinci mərhələdə namizədlər hərbi həkim komissiyasından keçirlər. Komissiyadan müvəffəqiyyətlə keçənlər imtahana buraxılış vəsiqəsi alırlar. İkinci mərhələdə namizədlər Dövlət İmtahan Mərkəzində Azərbaycan dili, riyaziyyat, fizika və kimya fənlərindən test imtahanları verirlər. Hərbi liseydə təhsil əyani formada, iki il müddətində və Azərbaycan dilində olur. Burada kursantlara ümumtəhsil fənləri ilə yanaşı, hərbi hazırlıq və idman dərsləri də tədris olunur. Qəbul olan kursantlar təhsil müddətində bütün təminat növləri ilə təmin olunur və aylıq müavinət alırlar.



Hərbi liseyin əsaslı təmir edilən tədris korpusunun ən müasir avadanlıqlarla təchiz olunan fənn kabinetlərində, kimya və fizika laboratoriyalarında kursantların bilik və hazırlıqlarının artırılması üçün hər cür şərait yaradılıb. Tədris prosesindən danışarkən ixtisaslı, peşəkar və təcrübəli pedaqoji kollektivin də əməyini xüsusi vurğulamalıyıq. Kursantların təhsilində, bilik və bacarığa yiyələnməsi işində müəllimlərin əməyi əvəzsizdir. Dərs keçən müəllim heyəti kursantların mövzuları yaxşı mənimsəməsi üçün bütün bilik və bacarıqlarını səfərbər edir."



Zabitlə söhbətimizi yekunlaşdırıb tədris binasına yollandıq. Kursantların dərs prosesini izlədik. Polkovnik Saday Balayevin dediklərinin əyani şahidi olduq. Yüksək tərtibatla hazırlanan dərs otaqları və müasir tədris avadanlıqları könül xoşluğu verir. Tədris fənlərinin yaxşı mənimsənilməsi üçün bütün nəzəri və praktiki vasitələrin olduğunun şahidi olduq. Kursantlar da dərslərdə fəal iştirak edir, öyrədilənləri həvəslə mənimsəməyə səy göstərirlər. Bir sözlə, tədrisin yüksək səviyyədə təşkili təhsil alan yeniyetmələrin parlaq gələcəyindən xəbər verir.

Dərs prosesi başa çatdıqdan sonra kursantlarla da görüşmək imkanı tapdıq. Hərbi liseyə ən yüksək balla qəbul olunan və birinci kursda təhsil alan kursant Həmzə Vəliyevlə və ikinci kursda ən yaxşı qiymətlərlə oxuyan əlaçı kursant Xəyyam Məmmədovla söhbətləşdik.

Həmzə 15 yanvar 2006-cı ildə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayon Qıvraq qəsəbəsində anadan olub. Ümumi orta təhsilini Sumqayıt şəhərində başa vurub. Uşaqlıqdan pilot olmaq arzusunda olan Həmzə 625 bal toplayaraq ən yüksək nəticə ilə liseyə qəbul olub. Xəyyam Məmmədov isə Gəncə şəhərində hərbçi ailəsində anadan olub. O, ata yolunun davamçısıdır. Bu şərəfli peşəyə maraq və sevgi atası, ehtiyatda olan polkovnik-leytenant Anar Məmmədovdan qaynaqlanır. Hər iki yeniyetmə burada olmaqdan sevincli və qürurlu olduqlarını bildirdilər. "Biz bütün kursantlar adından liseydə yaradılan yüksək şəraitə görə dövlət rəhbərliyinə təşəkkürümüzü bildiririk. Burada hərtərəfli inkişafımız üçün hər cür təminatımız var. Həm hərbçi kimi formalaşır, həm də təhsilimizi uğurla davam etdiririk. Geyimlə, yeməklə, yataq yeri ilə yüksək səviyyədə təmin olunuruq. İstirahətimiz və asudə vaxtlarımız da səmərəli təşkil olunur", - kursantlar dedilər.

Kursantlara dərslərində uğurlar arzulayıb, illər sonra minlərlə gənc kimi onların da ordumuzdakı peşəkar zabitlərdən olacaqlarına inamımı bildirdim.

Qeyd edim ki, 50 illik yubileyini qeyd edən Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alan kursantların liseyin rejiminə uyğunlaşmaları, sosial-məişət şəraitləri, asudə vaxtları və digər qayğıları haqqında yazı qəzetin növbəti buraxılışında dərc olunacaq.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

*Sıra hazırlığı*

# “Sıra hazırlığı əsgərlərimizə səliqəli, nizam-intizamlı olmağı aşılayır”



Döyüş hazırlığının ayrılmaz hissəsi olan sıra hazırlığının şəxsi heyətin nizam-intizamlı olmasında müstəsna rolu vardır. Yüksək nizam-intizamı olan bölmə isə qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gəlməyə qadirdir. "N" hərbi hissəsində hərbi qulluqçuların sıra hazırlığı məşğələsində sıra vərdişlərini təkmilləşdirmələrinin şahidi olduq. Baş leytenant Məzahir Bünyatovun nəzarəti altında əsgərlər müəyyən komandaları yerinə yetirirdilər. Məşğələ bitdikdən sonra onlarla həmsöhbət olmaq imkanı qazandıq.

Sıra hazırlığının əhəmiyyətindən danışan zabit bildirdi ki, keçirilən dərslər əsgərlərimizə səliqəli və nizam-intizamlı olmağı aşılayır. "Təsdiq olunan dərs cədvəlinə uyğun olaraq hərbi qulluqçulara sıra hazırlığından məşğələlər keçirilir. Məşğələlərdə fəallıq göstərən əsgərlərimiz bilir ki, nizam-intizam sıradan başlayır. Ən əsası isə nizam-intizamlı ordu mütləq qələbə qazanır. 44 günlük Vətən müharibəsində olduğu kimi...”

Öyrənirik ki, zabit Vətən müharibəsinin iştirakçısıdır. Komandiri olduğu bölmə ilə birlikdə Suqovuşan, Talış kəndləri istiqamətində döyüşüb. Suqovuşan kəndinin işğaldan azad edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi igidlik və mərdliyə görə Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Hərbi xidmətə Astara rayonundan çağırılan əsgər Məhəmməd Əlizadə isə bildirdi ki, Vətənin əsgəri olmaq şərəflidir. "Biz qalib ordunun əsgəriyik. Döyüş hazırlığımızı yüksək səviyyədə saxlamaq üçün əlimizdən gələni əsirgəməməliyik. Xalqımızın biz hərbçilərə olan etimadını Vətən müharibəsində doğrultduq. Bundan sonra da ərazi bütövlüyümüzün qorunmasında əlimizdən gələni əsirgəməməliyik".

İşğaldan azad olunan torpaqlarımızın gözəlliyindən danışan əsgər Elvin Kərimov bildirdi ki, Qarabağ füsunkar təbiətə malikdir. "Bir vaxtlar işğalda olan torpaqlarımız Ali Baş Komandanımızın rəhbərliyi ilə artıq azaddır. İndi orada yenidənqurma işləri aparılır. Tezliklə soydaşlarımız dədə-baba yurdlarına yenidən dönəcəklər. Biz də çalışmalıyıq ordumuzun döyüş qabiliyyətini yüksək səviyyədə saxlayaq. Bunun üçün komandirlərimizin öyrətdiklərini dərindən mənimsəyirik. Qalib ordunun əsgəri olaraq hər an torpaqlarımızı yağı düşməndən qorumağa hazırıq".

"Xidmətə gəldiyimiz ilk gündən komandirlərin diqqəti və qayğısı ilə əhatə olunmuşuq deyən və məişət şəraitindən söz açan əsgər Azər Mikayılov dedi ki, müasir standartlara cavab verən yataqxanamız, yeməkxanamız və sanitar qovşaq bizim istifadəmizdədir. Valideynlərim əsgərlər üçün yaradılan şəraiti görəndə çox sevindilər. Çünki heç nəyə ehtiyacımız yoxdu. Biz də çalışırıq ki, bu cür şəraiti qoruyub saxlayaq. Bizim üçün yaradılmış şəraitə görə Ali Baş Komandan İlham Əliyevə və Müdafiə naziri general-polkovnik Zakir Həsənova öz minnətdarlığımı bildirirəm.

Ordu sıralarında xidmət edən, peşəsini sevən komandirlərimiz, vətənpərvər gənclərimizlə söhbət etdikdən sonra bir daha əmin olduq ki, torpaqlarımızın müdafiəsi əmin əllərdədir!

**Kapitan**
**Ruslan HƏSƏNZADƏ**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan cüdoçuları “Böyük dəbilqə” turnirini 2 medalla başa vurublar




Parisdə keçirilən "Böyük dəbilqə" turnirinin ikinci günündə Azərbaycanın 3 cüdoçusu mübarizə aparıb.

Murad Fətiyev (81 kq) startda Tim Qramkov (Almaniya), Məmmədəli Mehdiyev (90 kq) Aleksis Mathieuya (Fransa) uduzub. Digər təmsilçimiz - 100 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən Uşangi Kokauri əvvəlcə Emre Sanal (Türkiyə), daha sonra Mbaqnik Ndiayeni (Seneqal) məğlub edərək yarımfinala vəsiqə qazansa da, bu mərhələdə rusiyalı İnal Tasoyevin öhdəsindən gələ bilməyib. Cüdoçumuz üçüncü yer uğrunda isə niderlandlı Yur Spaykersiyə məğlub olaraq 5-ci yerlə kifayətlənib.

Beləliklə, komandamız turniri 2 medalla başa vurub. Belə ki, yığmamızın üzvü Balabəy Ağayev (60 kq) "Böyük dəbilqə" turnirinin qalibi olub. Digər cüdoçumuz Hidayət Heydərov (73 kq) bürünc medal qazanıb.

## Cüdoçularımız Avropa kuboku yarışında 2 medal qazanıblar




Xorvatiyanın Dubrovnik şəhərində start götürmüş cüdo üzrə Avropa kuboku yarışını Azərbaycan komandası 2 medalla başa vurub.

Cüdoçularımızdan 90 kiloqram çəki dərəcəsində çıxış edən Rüfət İsmayılov yalnız həlledici final görüşündə məğlub olub və nüfuzlu turnirin gümüş medalına sahib olub. Məhərrəm İmamverdiyev (81 kq) isə yarışı üçüncü pillədə başa vurub.

Qeyd edək ki, Avropa kuboku yarışında Azərbaycanı kişilərdən ibarət milli komandamız təmsil edib. Azərbaycanın 11 cüdoçu ilə qatıldığı mötəbər yarışda 26 ölkədən 300-ə yaxın cüdoçu mübarizə aparıb.

## Güləşçimiz Rafiq Hüseynov dünya reytinqində liderliyə yüksəlib



Norveçdə keçirilən dünya çempionatından sonra Dünya Güləş Birliyi (UWW) idmançıların reytinq sıralamasını açıqlayıb.

Yunan-Roma güləşində 82 kiloqram çəki dərəcəsində dünya çempionu olan Rafiq Hüseynov bu çəkidə liderliyə yüksəlib. Otuz üç yaşlı pəhləvanımız 70 xalla reytinqə başçılıq edir. R.Hüseynov ən yaxın izləyicisi Adlan Akiyevi (Rusiya) 9 xal qabaqlayır. Güləşçimiz əvvəlki siyahı ilə müqayisədə 23 pillə irəliləyib.

Güləşin bu növündə daha 3 həmyerlimiz ilk onluqda yer alıb. 55 kiloqramda Eldəniz Əzizli 39 xalla ilk üçlüyü qapayır. Osloda bürünc medal qazanan güləşçimiz 4 pillə irəliləyib. Taleh Məmmədov (63 kq) 6-cı yerdən 3-cü yerə yüksəlib. Təcrübəli pəhləvanımızın hesabında 38 xal var. Sənan Süleymanov (77 kq) isə böyük sıçrayış edib. Dünya çempionatında gümüş medalı boynundan asan güləşçimiz xal ehtiyatını 58-ə çatdırmaqla 15-ci pillədən 3-cü sıraya yüksəlib.

Sərbəst güləşdə millimizin 4 üzvü öz çəkilərində ilk onluqda yer alıb. Tokio Olimpiadasında gümüş medal əldə edən Hacı Əliyev (65 kq) üçüncü yerdən altıncı yerə enib. Buna səbəb 44 xala malik titullu idmançımızın dünya çempionatını buraxması olub. Mundialda medalın bir addımlığında dayanan Turan Bayramov 70 kiloqram çəki dərəcəsində iki həmkarını geridə qoyaraq 4-cü yerə yüksəlib. Gənc güləşçimizin hesabında 38 xal var. Abubakr Abakarov (86 kq) böyük irəliləyişə nail olub. Hazırda 25 xalla ilk onluğu qapayan təmsilçimizin əvvəlki mövqeyi 33-cü pillə idi. Osman Nurməhəmmədov (92 kq) 11-ci pilləni 3-cü yerlə əvəzləyib. Dünya üçüncüsü 39 xala malikdir.

Qadın güləşinə gəlincə, Mariya Stadnik (50 kq) bir pillə geriləyib. Millimizin lideri 60 xalla üçüncü pillədə qərarlaşıb. Elis Manalova (68 kq) 22 xalla ilk onluğu qapayır.

**AZƏRTAC-ın materialları əsasında**

# Vətən müharibəsində yaralanmış 2050-dək qaziyə əlillik və müvafiq sosial ödənişlər təyin edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi Vətən müharibəsində yaralanmış hərbi qulluqçuların əlilliyinin qiymətləndirilməsi işlərini davam etdirir.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, qazilərdən 2050 nəfərinə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyin olunub.

Əlillik təyinatından sonra onlara əlillik dərəcələrinə uyğun olaraq birdəfəlik sığorta ödənişi və elektron sistem üzərindən proaktiv qaydada aylıq sosial ödənişlərin (Prezidentin aylıq təqaüdünün və əlilliyə görə müavinət, yaxud əlilliyə görə əmək pensiyasının) təyinatları həyata keçirilib.

Agentliyin həkim-ekspertlərindən ibarət işçi qrupu və Nazirlər Kabinetinin qərarı ilə yaradılmış komissiyada təmsil olunan digər qurumların nümayəndələri ilə birgə hərbi qulluqçuların ilk növbədə əyani müayinəsi və müvafiq sənədləşdirmə işləri aparılır.

Müdafiə və Ədliyyə nazirliklərinin, Daxili Qoşunların, Dövlət Sərhəd Xidmətinin Hərbi Həkim Komissiyaları tərəfindən şəhadətnamələr (xəsarət və ya xəstəliklərinin hərbi xidmətlə əlaqəsinin müəyyənləşdirilməsi məqsədilə) təqdim olunur və tibb müəssisələri tərəfindən göndəriş (forma 88) elektron sistemə daxil edilir və yekun mərhələ kimi əlilliyin qiymətləndirilməsi aparılır.

*Hərbi texnikalar, silahlar*

# “Tor-E2” zenit-raket kompleksi



Müasir çoxkanallı "Tor-E2" zenit-raket kompleksi "Tor" noblu zenit-raket kompleksinin son modifikasiyalarındandır. Raket kompleksi təyyarələri, helikopterləri, qanadlı radiolokasiya əleyhinə və digər idarə olunan raketləri, idarə olunan aviasiya bombalarını, pilotsuz uçuş aparatlarını məhv etmək üçün nəzərdə tutulub.

"Tor-E2" zenit-raket kompleksi intensiv atəş və radio-optik-elektron qarşıdurma ilə müxtəlif iqlim şəraitində gecə və gündüz fəaliyyət göstərmə imkanına malikdir.

"Tor-E2" kompleksi əvvəlki modifikasiyalarından öz taktiki-texniki xüsusiyyətlərinə görə fərqlənir. Kompleks müxtəlif cihazlarla təchiz edilib. Onun döyüş kompleksinə idarə olunan qoşa zenit raketləri daxildir.

Zenit-raket sisteminin taktiki-texniki xüsusiyyətlərinə gəldikdə isə “Tor-E2” 15 km uzaqlıqda, 12 km isə hündürlükdə hədəfləri məhv edə bilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor vəzifəsini icra edən** kapitan Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant İbrahim MƏMMƏDBƏYOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 682
Nüsxə 4044